*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 aprel 2019-cu il № 26 (2343) Qiyməti 30 qəpik


# "Aprel döyüşləri müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir"



*Ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə olmaqla dövlət quruculuğunun tərkib hissələrindən biridir. Bu gün ulu öndər Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Son illər Azərbaycanda ordu quruculuğunda həyata keçirilən ardıcıl tədbirlər, ordunun peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlər təsdiqləyir ki, Azərbaycan Ordusu regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir.*

Azərbaycanın hərbi potensialının gücləndirilməsinə diqqət yetirən ölkə rəhbərliyinin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan Ordusu nüfuzlu ölkələrin orduları səviyyəsindədir. Ölkəmiz bu uğura qısa bir vaxtda formalaşan güclü iqtisadiyyatı hesabına nail olub. İqtisadi qüdrətin artmasının nəticəsidir ki, dövlətimiz ordunun hərtərəfli möhkəmləndirilməsinə, onun müasir döyüş texnikaları ilə təchiz edilməsinə, hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksək səviyyəyə çatdırılmasına diqqət və qayğı ilə yanaşır. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin ön xətdə hərbi hissələrdə olması, hərbi qulluqçuların xidmətini yüksək qiymətləndirməsi həmin qayğının tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu günlərdə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsində oldu. Bu səfər də şəxsi heyətin böyük ruh yüksəkliyi ilə peşəkarlığının və döyüş hazırlığının artmasına xidmət etdi. Müasir hərbi şəhərciyin tikilib istifadəyə verilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, təbii ki, ruh yüksəkliyi ilə qarşılandı.

Ölkə Prezidentinin ordunun inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, Azərbaycan Ordusu müasir tələblər səviyyəsindədir. Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsində yaradılan şərait xidmətin nümunəvi təşkilinə imkan verəcək, əsgərlərin xidməti və istirahəti hərtərəfli təşkil olunacaq, qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetiriləcəkdir.

Hazırda Azərbaycan Ordusunun qarşısında dayanan başlıca vəzifə torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsidir. Ordumuzun gündən-günə gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, aparılan məqsədyönlü islahatlar məhz bu vəzifənin uğurla yerinə yetirilməsinə yönəlib.

Bu gün qarşıda duran digər vəzifələrdən biri də Azərbaycan Ordusunun daha da modernləşdirilməsi və ən son hərbi texnologiyaların orduya cəlb edilməsidir. Son illər keçirilən möhtəşəm hərbi paradlar Azərbaycan Ordusunun həm güc və qüdrətini, həm də modernləşdiyini nümayiş etdirir.

Hərbi hissədə çıxışı zamanı iki hərbi paradın Azərbaycanın hərbi qüdrətini nümayiş etdirdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Ordumuz üçün ən müasir silahlar, texnikalar alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirilmişdir. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olmuşuq. Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir".

Dövlət başçısı onu da vurğulayıb ki, Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir."

Bu gün güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir və orduda şəxsi heyətin döyüş ruhu yüksəkdir. Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Ordumuzun müasir səviyyədə qurulması, ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları ilə təchiz olunması da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsidir. Bu amil Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumuna da yüksək təsir göstərib və göstərməkdədir. Bu səfər nəinki ordu-xalq biliyinin, eyni zamanda, dövlət-ordu-xalq birliyinin təzahürüdür.

Azərbaycan Ordusu dövlətimizin qüdrətinin nümunəsidir, ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlığa malikdir. Azərbaycan Ordusu yüksək peşəkarlığı ilə həm dövlətçiliyin, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinin ən güclü faktorlarından biridir.

Hazırda Azərbaycan Ordusu dövlət rəhbərliyinin böyük diqqət və qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsindədir. Azərbaycan əsgəri Ali Baş Komandanımızın əmri ilə hər an torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazırdır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycan heç vaxt - nə bu gün, nə 10 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağı Azərbaycandan ayıra biləcək razılaşmaya getməyəcəkdir. Azərbaycan öz tarixi torpağı olan, tarixən azərbaycanlıların yaşadığı Dağlıq Qarabağın müstəqilliyinə heç vaxt imkan verməyəcək. Azərbaycan Ordusuna göstərilən diqqət və qayğı onu da deməyə əsas verir ki, qüdrətli ordumuz tezliklə torpaqlarımızı düşməndən azad edəcək!

**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüş keçirilib

## Birinci vitse-prezident Mehriban Əliyeva hərbçilərlə səmimi söhbət edib

*Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə aprelin 3-də görüş keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən görüşdə əvvəlcə Aprel döyüşləri şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*





Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov tədbirdə çıxış edərək bildirib ki, üç il bundan əvvəl Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinə başlayıb. Artıq bu layihənin ikinci mərhələsi yekunlaşıb. Ötən üç il ərzində 100-dən çox zabit və əsgər yüksək texnologiyalı protezlərlə təmin olunub. Bugünkü görüşün üç il bundan əvvəlki Aprel döyüşlərinə, ordumuzun qələbə gününə təsadüf etdiyini deyən Anar Ələkbərov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın görüş iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə deyilir: "Azərbaycanın əzəli tarixi torpağı olan Dağlıq Qarabağ və digər yeddi rayonumuz artıq 25 ildən çoxdur Ermənistan respublikası tərəfindən işğal olunub. Bu hərbi təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətində yaşayır. 1994-cü ildə atəşkəs razılığının əldə olunmasına baxmayaraq, Ermənistan Azərbaycana qarşı dəfələrlə silahlı təxribat törətmiş, lakin xalqımızın sizin kimi igid oğullarının qəhrəmanlığı və şücaəti sayəsində Azərbaycan Ordusu bu təxribatların qarşısını alaraq düşmənə hər zaman layiqli cavab vermişdir.

Siz Vətən yolunda qəhrəmanlıq göstərərək Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, ölkəmizin daha qüdrətli, daha möhkəm olması yolunda sağlamlığınızı itirmisiniz. Bununla da öz ölkənizə, xalqınıza, Prezident və Ali Baş Komandanınıza sadiqlik nümayiş etdirmisiniz. Azərbaycan dövləti sizin fəaliyyətinizi yüksək qiymətləndirir, sizin kimi mərd və cəsarətli oğullarının olması ilə fəxr edir. Sizin apardığınız mübarizə haqq mübarizəsidir. Azərbaycan dövləti münaqişənin ədalətli, beynəlxalq hüququn prinsipləri və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması üçün əlindən gələni əsirgəmir.

2016-cı ildə baş vermiş Aprel döyüşlərindən üç il ötür. Bu döyüşlər bir daha bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan dövləti işğalla heç zaman barışmayacaq. Aprel döyüşləri Azərbaycan xalqının vətənpərvərliyini, həmrəyliyini və yenilməz iradəsini bir daha nümayiş etdirdi. Məhz Aprel döyüşlərinin cəsarətli iştirakçılarının qəhrəmanlığı nəticəsində bu gün Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər zamanı bizim itkilərimiz oldu. Bu itkilər bizim hamımız, hər bir azərbaycanlı üçün böyük dərddir. Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərərək ömürlərini Vətən yolunda qurban verdilər, şəhid oldular. Öz həyatını Vətən naminə qurban vermiş mərd oğullarımızın xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır.

Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin sağlamlığınızın bərpası və normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti bütün lazımi addımları atır və bundan sonra da atacaqdır. Mən sizin hər birinizə cansağlığı və uğurlar arzulayıram".

Görüşdə polkovnik-leytenant Eldəniz Sadıqov çıxış edərək deyib ki, üç il bundan əvvəl baş vermiş Aprel döyüşlərində Azərbaycan Ordusu düşmənə və bütün dünyaya öz gücünü sübut etdi. 2016-cı ilin aprel ayında düşmənin kəşfiyyat və diversiya qruplarının hücumunun qarşısı Azərbaycan Ordusu tərəfindən alındı. Düşmənin müdafiə xətti tez bir zamanda yarılaraq mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Bu, bir daha sübut etdi ki, bizim güclü və nizami ordumuz var. Biz öz torpaqlarımızı geri qaytaracağıq. Azərbaycanın Ali Baş Komandanı ordumuza yüksək qayğı göstərir, hərbçilərin məişət şəraitinin yaxşılaşdırılmasına, müasir hərbi hissələrin tikilməsinə, zabitlərin yeni evlərlə təmin olunmasına böyük diqqət ayırır. "Aprel döyüşlərində mən və mənim silahdaşlarım bilmirdik ki, şəhid olacağıq və ya sağ qalacağıq. Biz o haqda heç düşünmürdük. Çünki inanırdıq ki, biz şəhid olsaq da, Ali Baş Komandan, Birinci vitse-prezidentimiz, dövlətimiz və xalqımız bizim ailələrimizin yanında olacaq", - deyə Eldəniz Sadıqov bildirib.

Xidməti vəzifələrini yerinə yetirərkən sağlamlıqlarını itirən zabitlərin, əsgərlərin özlərini cəmiyyətdən kənar hiss etmədiklərini söyləyən kapitan Amil Dadaşov bunun qürur duyduqlarını qeyd edərək deyib: "Aprel döyüşlərində yaralanan hərbçi yoldaşlarım artıq üç il ərzində dinamik həyat fəaliyyəti ilə məşğul olurlar, insanların arasındadırlar". Amil Dadaşov onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib.



Baş leytenant Namiq Əliyev qeyd edib ki, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlər Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə ən müasir, hər cür hərəkət qabiliyyətinə malik protezlərlə təmin edilib. "Bütün bunlar bizlərə verilən dəyər və qiymətdir. Bu gün biz ayağımızı, gözümüzü itirsək də, qürur və əzəmətlə dayanırıq. Çünki biz gücümüzü torpaqdan alırıq", - deyə Namiq Əliyev bildirib.

Görüşdə MEDİCOM şirkətinin direktoru Anar Rüstəmov Heydər Əliyev Fonduna minnətdarlığını bildirərək, protezlərlə təmin edilən hərbçilərimizə də layihə çərçivəsində görülən işlərdəki ruh yüksəkliyinə görə təşəkkürünü bildirib.

Sonra hərbçilərə Heydər Əliyev Fondunun təşəkkürnamələri təqdim edildi.

Daha sonra Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə görüşdü, onlarla səmimi söhbət etdi.

Söhbət zamanı Birinci vitse-prezident vətənpərvər övladlarımızın qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirdiyini, hər zaman onlara dəstək olacağını vurğulayaraq dedi:

- Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var.

Mən hər zaman deyirəm ki, Azərbaycan çox zəngin ölkədir, sərvətləri, gözəl təbiəti var. Amma bizim ən böyük sərvətimiz Azərbaycan xalqıdır, Azərbaycan insanıdır. Doğrudan da Azərbaycan xalqı fəxr etməlidir ki, sizin kimi oğullar yetirib. Analarımız fəxr etməlidirlər ki, sizin kimi igid övladlar böyüdüblər. Belə xalqla, belə əsgərlərlə, zabitlərlə, belə qardaşlarla biz Qarabağı mütləq qaytaracağıq. Qarabağın hər bir kəndində, hər bir şəhərində Azərbaycan bayrağı dalğalanacaq.

Mən bir daha sizə dərin minnətdarlığımı bildirirəm. Mən bilirəm ki, Heydər Əliyev Fondunun əməkdaşları daim sizinlə ünsiyyətdədirlər. Bir daha sizi əmin etmək istəyirəm ki, hər bir probleminin həllində biz əlimizdən gələn hər şeyi etməyə hazırıq. Siz müraciət edirsiniz, bilirəm ünsiyyətdəsiniz. Hər bir problemin həllini şəxsən özüm diqqətdə saxlayacağam. Mən mümkün olan köməyi ən yüksək səviyyədə göstərəcəyəm. Sağ olun.

Hərbçilər göstərdiyi diqqət və qayğıya görə Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. 2017-ci ildə Heydər Əliyev Fondunun və müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə yaradılan işçi qrupu 2016-cı il Aprel döyüşləri zamanı yaralanmış və protezləşməyə ehtiyacı olan hər bir əsgər və zabitlə görüşlər keçirib, onlara fərdi yanaşma tətbiq olunub. Belə ki, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin fərdi xüsusiyyətləri, onların aktivlik dərəcələri, həyat tərzləri, məşğuliyyətləri və hər bir istifadəçinin protezlərə olan fərdi tələbləri təhlil edilərək hərbçilərimiz üçün uyğun, müasir protez istehsalçıları olan qabaqcıl şirkətlərin yüksək texnologiyalı məhsulları seçilib.

Tətbiq edilən yeni protezlərin texniki imkanları amputasiya olunmuş hissə ilə hərəkət uyğunluq yaradır. Bunun sayəsində protezlə ayaq və yaxud əl bir-birinə maksimum uyğunlaşmış olur. İstifadəçi protezi amputasiya olunmuş hissənin davamı kimi hiss edir və daha rahat addım atır, aktiv hərəkət edir.

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihənin davamı olaraq 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Ümumilikdə layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata qayıdaraq əmək fəaliyyətini davam etdirir.

## General-leytenant Kərim Vəliyev:

# Ali Baş Komandanın ordumuza verdiyi yüksək qiymət şəxsi heyətin döyüş ruhunu artırıb

*Azərbaycan Ordusunun şəxsi heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" hərbi hissəsindəki çıxışını böyük ruh yüksəkliyi ilə qarşılayıb.*



Bunu Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev AZƏRTAC-a açıqlamasında deyib.

K.Vəliyev bildirib ki, hərbi hissədə yaradılmış şərait və aparılan quruculuq işləri ilə tanış olan, həmçinin Xüsusi Təyinatlı Qüvvələrin döyüş hazırlığı üzrə məşğələlərini izləyən Ali Baş Komandan görülən işləri, eləcə də xüsusi təyinatlıların və ümumilikdə ordumuzun bütün şəxsi heyətinin hazırlıq səviyyəsini və peşəkarlığını yüksək qiymətləndirib. Bu, bir daha onu göstərir ki, həm dövlət rəhbərliyi, həm də xalqımız ordumuza güvənir və ona böyük ümidlər bəsləyir.

Ordu quruculuğu sahəsində görülən işlər, xüsusilə də silahlanmaya qəbul edilən ən müasir silah və hərbi texnika, o cümlədən yeni texnologiyaların tətbiqi ilə istehsal olunmuş döyüş vasitələri, bölmələrimizin hərtərəfli təchizatı, müntəzəm keçirilən genişmiqyaslı hərbi təlimlər Azərbaycan Ordusunun döyüş qabiliyyətini yüksəldib. Aprel döyüşləri və Günnüt əməliyyatı zamanı əldə olunan uğurlar ordumuza böyük döyüş təcrübəsi qazandırıb. Bu, ordumuzun yeni qələbələr əldə etməsinə zəmin yaradır.

Müdafiə nazirinin müavini deyib ki, ordumuza göstərilən diqqət və qayğı şəxsi heyətin mənəvi-psixoloji durumuna və döyüş ruhunun yüksəlməsinə də müsbət təsir göstərir. Bu, həm döyüş hazırlığı baxımından bizim üzərimizə daha böyük məsuliyyət qoyur, həm də torpaqlarımızın azad olunması naminə yeni qələbələrin əldə edilməsi üçün şəxsi heyətin əzmkarlığını artırır.

Prezident İlham Əliyev çıxışında hərbi qulluqçuların sosial təminatının yaxşılaşdırılması məsələsinə toxunaraq bildirdi ki, bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Qeyd etməliyəm ki, sosial təminatın şəxsi heyətin döyüş qabiliyyətinin artırılmasında çox böyük rolu var. Bu məsələlərin həlli şəxsi heyətin yalnız xidməti məsələlərlə məşğul olmasına şərait yaradıb. Hərbi qulluqçu bilməlidir ki, dövlət və xalq ona və ailəsinə qayğı göstərir, o da Vətənin keşiyində möhkəm dayanır və hətta canından belə keçməyə hazır olur.

"Bilirsiniz ki, hərbi qulluqçularla yanaşı, müharibə veteranlarının, şəhid ailələrinin və yaralı hərbi qulluqçuların da sosial təminatı ildən-ilə gücləndirilir. Bu da onlara böyük mənəvi dəstək olur. Həmin şəxslər dövlətin onlara bu cür münasibətini yüksək dəyərləndirir, göstərilən diqqət və qayğıya görə daim Ali Baş Komandana minnətdarlıqlarını bildirirlər.

Ali Baş Komandanın da qeyd etdiyi ki, bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Bunu təkcə dünya ictimaiyyəti deyil, düşmən də yaxşı bilir. Prezidentin son çıxışında toxunduğu məsələlər, qarşımıza qoyduğu tapşırıqlar və verdiyi tövsiyələr Müdafiə nazirinin göstərişi ilə artıq ön xətt bölmələrində xidmət edən hərbi qulluqçular da daxil olmaqla Azərbaycan Ordusunun bütün şəxsi heyətinə çatdırılıb.

Hər kəsə yaxşı məlumdur ki, bu gün ordu ilə xalq arasında çox sıx və səmimi münasibətlər mövcuddur. Xalqımız ordumuza böyük etimad göstərir və onu hər bir məsələdə yaxından dəstəkləyir. Bu birlik bir çox çətinliklərin öhdəsindən gəlmək və torpaqlarımızın işğaldan azad edilməsi üçün əsas göstəricidir. Bu birlik düşmənin qaçılmaz fəlakətli sonluğunu gündən-günə yaxınlaşdırır", - deyə general-leytenant Kərim Vəliyev vurğulayıb.

# "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"

*Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq olaraq genişmiqyaslı təlimlər yüksək səviyyədə keçirildi. Müxtəlif qoşun növlərinin birgə fəaliyyətini əlaqələndirən bu təlimdə şəxsi heyətin yüksək döyüş qabiliyyəti bir daha öz təsdiqini tapdı. Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyə təqdim etdi. Onlar da digər hərbi qulluqçular kimi, Ali Baş Komandanın döyüş əmrinə - torpaqlarımızı işğaldan tamamilə azad etməyə hazırdırlar.*



**Baş leytenant Roman Vəliyev:**

- Ermənistanın Azərbaycana qarşı müharibəyə başlamasının tarixi məndən böyükdür. Yəni, göz açalı, söz anlayalı müharibə görmüşəm, müharibə haqqında eşitmişəm. Nə ailəmizdə, nə də yaxın qohumlarımızda hərbçi olmayıb. Orta məktəbdə oxuyanda hansı duyğuların təsirindənsə müharibə ilə bağlı əsərləri oxumağa, filmlərə baxmağa daha çox marağım vardı.

Naxçıvanda Hərbi liseydə təhsil almaq istəyimi valideynlərimə bildirdim. Onlar mənimlə razılaşdılar. Bu, mənim inamımı daha da artırdı. Deməli, atam anam mənə inanır, güvənir. Hərbçi olacadım. Uşaqlığımda eşitdiklərim mənim Vətən sevgimi daha da artırmışdı. Hərbi liseyi bitirdim. Ali hərbi təhsilimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində aldım. Atam həmişə deyərdi ki, hansı sənəti seçirsən seç, ancaq onu mükəmməl mənimsə. Mən hərbçi peşəsini seçmişdim və yaxşı zabit olmaq üçün çox çalışırdım.

İllər keçdi. Ali hərbi məktəbi bitirdim. Arzuladığım kimi, hərbi xidmətə ön xətdə yerləşən hərbi hissələrdən birində başladım. Kursant Vəliyev deyil, leytenant Vəliyev çağırılacaqdım. Bu, mənim üçün qürur olacaqdı, sevgi, sevinc, fərəh olacaqdı. Taqım komandiri kimi tabeliyimdə xidmət edən əsgərlərin istər döyüş hazırlığının, istərsə də mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasına çalışırdım.

Asudə vaxtlarımızda əsgərlərlə Vətəndən, torpaqdan, müharibədən, şəhidlikdən, şəhidlərdən danışırdıq. Əsgərlərin düşüncələri ürəyimi dağa döndərirdi. Əmin olurdum ki, Ali Baş Komandan döyüş əmri verərsə, bu əzmkar əsgərlər mərdliklə döyüşəcək, döyüşləri qələbəylə tamamlayacaqlar...

2016-cı ilin Aprel döyüşlərində əsgərlərimiz də döyüşlərə getmək istədiklərini bildirdilər. "Biz hərbçiyik. Verilən əmri yerinə yetirməliyik. Əmr verilərsə, iştirak edəcəksiniz, döyüşəcəksiniz, qələbə qazanacaqsınız", - demişdim. Əsgərlər qazanılan qələbəni böyük qürurla yaşadılar. Döyüşlərdən az sonra Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin yazdığı "Lələtəpə odası" mahnısı taqımın qeyri-rəsmi marşı oldu. O mahnı əsgərlərimizin ruhunu Böyük Qələbəyə kökləyirdi.

Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlar da şəxsi heyətin mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsini təmin etdi. Bir daha əmin oldular ki, ordumuz güclüdür, qüdrətlidir, torpaqlarımızı işğaldan azad etməyə qadirdir...

Bu yaxınlarda keçirilən genişmiqyaslı təlimlər də Azərbaycan Ordusunun gücünün, qüdrətinin təsdiqi oldu. Bir daha təsdiqləndi ki, bu ordu nəinki Cənubi Qafqazda, dünya miqyasında ən güclü ordular sırasındadır.

Hərbi andın, nizamnamələrin tələblərinə uyğun xidmət edirik. Bu və ya digər təltif üçün deyil, məhz Vətən üçün xidmət edirik. Yaxşı xidmət müqabilində təltif hərbi qulluqçuların özünə inamını da artırır, məsuliyyətini də.

Budəfəki təlimlər başa çatdıqdan sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov mənə qiymətli qol saatı hədiyyə etdi. Hədiyyə hörmətin, saygının təsdiqidir. Deməli, hərbi xidmətim Vətənə gərəklidir. Hədiyyə mənə bu duyğuları yaşatdı. Mən tabeliyimdə xidmət edən hərbi qulluqçulara da belə dedim: "Hərbi xidmət Vətən üçündür, elə xidmət edin ki, Vətənin adından hədiyyə alasınız." Belə hədiyyələr insanın ömrünə yazılar. Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq.

Bizim Vətənə ən böyük hədiyyəmiz Böyük Qələbə olacaq. Axı Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır.



**Əsgər Amil Nadirov:**

- Ailədə valideynlərimizdən, orta məktəbdə oxuyanda müəllimlərimizdən, yaşlı qohumlarımızdan, qonşularımızdan eşitdiklərimiz də düşüncələrimizə hopub: Vətən müqəddəsdi, torpaq müqəddəsdi, layiqli oğul Vətənini qoruyar, lazım gələrsə Vətən naminə şəhid də olar.

Hərbi xidmətdə zabitlərimizin söhbətləri bizi daha da mətinləşdirirdi. Hərbi biliklərə yiyələndik, həvalə edilən silahların istismar xüsusiyyətlərini mükəmməl mənimsədik. Bir sözlə, hərbi nizamnamələrin tələblərinə müvafiq xidmət edirik. 2016-cı ilin aprel döyüşlərində çoxumuz məktəbliydik. O döyüşlərdə qazanılan qələbələrə məktəbli kimi sevindik. İndi hərbi xidmətdəyik. Hər birimiz istəyirik ki, torpaqlarımızın azad olunması sevincini əsgər kimi yaşayaq. Ali Baş Komandanın döyüş əmrinə tam hazırıq.

Keçirilən genişmiqyaslı təlimlər mənim üçün ikiqat yaddaqalan olacaq. Təlimlərdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov mənə də qiymətli qol saatı hədiyyə etdi. Bu hədiyyənin qürurunu, sevincini illər boyu yaşayacam. Belə bir hədiyyə məni tanıyanların da sevincinə səbəb oldu. Mən də, əsgər yoldaşlarım da bir daha əmin olduq ki, yaxşı xidmət həmişə qiymətləndirilir. Mən bundan sonra da komandirlərimin etimadını doğruldacağam.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# “Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir”

## Müdafiə Nazirliyinin və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Aprel zəfərinin üçüncü ildönümünə həsr olunmuş hərbi vətənpərvərlik tədbiri

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qazax şəhərində Aprel zəfərinin üçüncü ildönümünə həsr olunmuş "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir" devizi altında hərbi vətənpərvərlik tədbiri keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Qazax rayon İcra Hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin rəsmiləri, Aprel şəhidlərinin valideynləri, ailə üzvləri, döyüşlərdə yaralanan əsgər və zabitlər, Qarabağ müharibəsi veteranları, ictimaiyyət nümayəndələri əvvəlcə Şəhidlər Xatirə kompleksini ziyarət edərək "Əbədi məşəl" önünə qırmızı qərənfillər düzüb, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, ulu öndərimizin adını daşıyan parkda keçirilən hərbi şöhrət bayramına qatılıblar.

Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdikdən sonra Üzeyir Hacıbəylinin "Cəngi" musiqisinin sədaları altında "Aprel zəfəri - 2016" ədəbi-musiqili-xoreoqrafik kompozisiya təqdim olunub. Tədbirin aparıcıları Respublikanın Xalq artisti Pərvanə Qurbanova və Əməkdar incəsənət xadimi Abdulla Qurbani Aprel zəfərinin yeni hərb tariximizdə mühüm yer tutduğunu, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi Aprel döyüşlərinin bizim şanlı tarixi qələbəmiz olduğunu nəzərə çatdırıblar. Bu zəfərə həsr edilmiş mahnılar, hərbi marşlar və rəqslər ifa edilib.

Aprel döyüşlərində və Naxçıvan Muxtar Respublikasında uğurlu əks-hücum əməliyyatları nəticəsində bir çox strateji yüksəklikləri düşməndən azad edərək min hektarlarla ərazilərin nəzarətə götürülməsində müstəsna xidmətləri olmuş hərbi hissələrin Azadlıq meydanında keçirilən hərbi paradlarda nümayiş etdirilən döyüş bayraqları meydana gətirilib. Tədbir iştirakçıları həmin bayraqları ayaq üstə alqışlarla qarşılayıb və işğal altında olan torpaqlarımızın da tezliklə azad ediləcəyinə əminliklərini bildiriblər.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev və Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov çıxış ediblər.

İcra başçısı R.Babaşov Aprel zəfərinin qazanılmasında, uzun illərdən sonra xalqımıza qələbə sevincinin yaşadılmasında dövlətimizin başçısı cənab İlham Əliyevin müstəsna xidmətlərinin olduğunu minnətdarlıq hissi ilə tədbir iştirakçılarına çatdırıb.

Qeyd olunub ki, müdrik və qətiyyətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılmış Aprel zəfəri Azərbaycan dövlətinin və Azərbaycan Ordusunun şanlı qələbəsidir. Bu qələbə ordumuzun gücünü, dövlətimizin qüdrətini və xalqımızın həmrəyliyini göstərdi.

Düşmən təkcə məğlub edilmədi, o həm də sındırıldı, Azərbaycan Ordusundan qat-qat gücsüz olduğunu etiraf etdi.

Çıxış edən natiqlər vurğulayıblar ki, Aprel döyüşlərindən keçən üç il ərzində də Respublika Prezidenti İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm işlər görülüb. Azərbaycan Ordusunun müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində Azərbaycanın iqtisadi inkişafı vacib rol oynayır və bunun arxasında şəxsən dövlətimizin başçısının gərgin əməyi, uğurla apardığı daxili və xarici siyasəti durur.

Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi hissəsindən birində olan Ali Baş Komandan İlham Əliyevin şəxsi heyətlə görüşündə Aprel döyüşləri barədə dediyi fikirlər hərbi şöhrət bayramı iştirakçıları tərəfindən alqışlarla qarşılanıb: "Aprel döyüşləri bizim tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Bu döyüşlər göstərdi ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır".



Tədbirdə Şəmkir hərbi birliyinin hərbi qulluqçuları öz məharətlərini nümayiş etdirib, Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin və Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı heyətləri, eləcə də respublikanın incəsənət ustaları Vətəni, ordumuzu tərənnüm edən konsert proqramı ilə çıxış ediblər.

Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan, Qazax rayonundan hərbi xidmətə çağırılan şəhid kapitan Mühüd Orucovun, baş leytenant Elvin Namazovun və əsgər Orxan Əliyevin qəhrəmanlıqları xatırlanıb, onların ölməzliyi naminə məşəllər yandırılıb. Şəhid valideynləri dövlət tərəfindən daim diqqət və qayğı ilə əhatə olunduqlarını, Prezident İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin layihəsi əsasında Müdafiə Nazirliyinin təşkil etdiyi hərbi vətənpərvərlik tədbirləri həftəsi Bakı şəhərində yekunlaşacaqdır.

# “Zəfər unudulmayacaq”

Bakı Konqres Mərkəzində 2016-cı il Aprel döyüşlərinin üçüncü ildönümünə həsr olunmuş "Vətən bizə əmanətdir" adlı tədbir keçirildi. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Gənclər Fondu və "Zəfər Şəhid Ailələrinə Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbir ikinci Fəxri xiyabanda Aprel şəhidlərinin məzarlarının ziyarət edilməsindən sonra başladı. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbirdə "Zəfər Şəhid Ailələrinə Dəstək" İctimai Birliyinin sədri, Aprel şəhidi polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Alızadə çıxış edərək 2016-cı il Aprel döyüşləri qəhrəmanlarının Vətən, torpaq uğrunda şəhid olan Allahverdi Bağırovun, Əliyar Əliyevin, Şirin Mirzəyevin, Fred Asif kimi xalqımızın fədakar oğullarının layiqli varisləri olduğunu bildirdi. Bugünkü nəslin Murad Mirzəyev, Pəncəli Teymurov, Samid İmanov, Raquf Orucov, Elnur Əliyev, Təbriz Musazadə kimi hünərli döyüşçülərimizin davamçısı olacaqlarını vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxışında Aprel döyüşlərində Azərbaycan Ordusunun şanlı qələbəsindən, əsgərlərimizin şücaətindən, düşmən işğalında olan hektarlarla ərazimizin azad olunmasından, indi həmin torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasından danışdı. Azərbaycan Ordusunun əsgər və zabitinin haqq işimiz uğrunda mübarizə apardığını qeyd edən Ü.Mehdiyev haqqın bizim tərəfimizdə olduğunu dedi: "Nə olursa-olsun, necə olursa-olsun, biz öz torpaqlarımızı azad edəcəyik. Aprel döyüşləri də onu göstərdi ki, xalqımız, dövlətimiz mütləq bu qələbəyə nail olacaq."

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-leytenant Arzu Rəhimov Aprel döyüşlərinin qüdrətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsi kimi hərb tariximizin şanlı səhifəsinə yazıldığını tədbir iştirakçılarının diqqətinə çatdıraraq bildirdi ki, bu zəfər ermənilərin işğalçılıq siyasətinin iflasa uğradığını bir daha göstərdi. "Aprel döyüşləri təcavüzkar Ermənistanın növbəti təxribatına verilən qəti və tutarlı cavab idi. Bu döyüşlərin nəticəsində iki min hektara yaxın ərazi və strateji əhəmiyyətə malik Lələtəpə və Talış yüksəklikləri düşmən işğalından azad edildi. Aprel zəfəri Azərbaycan xalqının Ermənistanın işğalçılıq siyasəti ilə barışmayacağını, Silahlı Qüvvələrimizin şəxsi heyətinin daim döyüşə hazır olduğunu bir daha təsdiqlədi. Həmin döyüşlər, eyni zamanda, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun böyük qələbələr qazanmağa qadir olduğunu sübut etdi. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət Azərbaycan bayrağının tarixi torpaqlarımızda dalğalanacağı günün heç də uzaqda olmadığını deməyə əsas verir."

Xidmət rəisi çıxışında dövlətimizin başçısının Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, qazilərinə daim diqqət və qayğı göstərdiyini xüsusi qeyd edərək onların sosial müdafiəsinin gücləndirilməsindən və bu sahədə ölkədə görülən işlərdən geniş bəhs etdi.

Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov da çıxış etdi.

Anım tədbiri "Şəhidimiz" aksiyası çərçivəsində hazırlanan videomaterialların və "Vətən bizə əmanətdir" ədəbi-bədii kompozisiyanın nümayişi ilə davam etdi. Sonda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü ilə "Azərmarka" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən hazırlanmış "Aprel döyüşləri-2016. Lələtəpə" markalarının təqdimatı oldu. Markalar şəhid ailələrinə təqdim edildi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# “Düşmən qaçmaqdan başqa çıxış yolu tapmadı”

*Tarixləşən və tarix yazan Aprel döyüşləri... 2016-cı ilin Aprel döyüşlərindən, Azərbaycan Ordusunun tarixi zəfərindən üç il keçir. Üç il öncə işğalçı Ermənistan ordusunun təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun bölmələri səmərəli hərbi əməliyyat keçirdi. Qəhrəman hərbçilərimizin fədakarlığı nəticəsində Azərbaycan strateji əhəmiyyətli bir əraziyə hərbi nəzarəti bərpa etdi. Döyüşlərdə qəhrəmanlıq nümunələri göstərmiş oğullarımızın tanıdılması, kütləvi informasiya vasitələrinin də üzərinə böyük vəzifələr qoyur. Bu mənada Aprel döyüşlərinin iştirakçısı olmuş bir neçə hərbi qulluqçunun fikirlərini oxucularımıza təqdim etdik.*



**Mayor Mirdamət Bağıyev:**

- Azərbaycan tarixində müharibələr çox olub. Bu döyüşlər hərb tariximizdir. Döyüş meydanlarında ata-babalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələrini bu gün biz davam etdiririk. Mənfur qonşularımızın elan etmədən başladığı müharibədə xalqımızın minlərlə oğul və qızı canından, qanından keçib. "Şəhid olaram, bir qarış torpağımdan keçmərəm" deyən oğullar xalqımızın yeni şanlı tarixini Aprel zəfəriylə yazdılar. Ordumuz erməni mifini bir an içində darmadağın etdi. Səngəri qoyub, silahı atıb qaçan erməni əsgəri, erməni zabiti Azərbaycan Ordusunun gücünü bir daha gördü. Biz döyüşçülər arxa cəbhə ilə ön cəbhənin eyni vaxtda nəfəs ala bilməsindən güc aldıq. Həmin günü belə xatırlayıram: 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə saat 3 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhə boyu iriçaplı silahlardan istifadə edərək təmas xəttini keçməyə cəhd göstərirdilər. Bu təxribatın qarşısını almaq məqsədilə düşmənin üzərinə yeridik. Xeyli sayda şəxsi heyətini, təkərli, zirehli texnikalarını darmadağın etdik. Ermənilər bizim gücümüzü görüb silahlarını atıb qaçırdılar. Döyüş ruhumuz çox yüksək idi. Düşmən tapdağı altında olan torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın "İrəli" əmrinə bundan sonra da hər an hazıram.

**Gizir Oktay İsmayılov:**

- Aprelin 1-dən 2-nə keçən gecə hərbi hissəmizin qərargahına məlumat daxil oldu ki, bütün cəbhə boyu mövqelərimiz və yaşayış məntəqələrimiz düşmən tərəfindən intensiv atəşə məruz qalıb. Biz də “Həyəcan” siqnalı ilə toplanaraq, düşmən hücumunun qarşısını almağa cəlb olunduq, yuxarı komandanlığın tapşırığı ilə əks-hücuma keçdik. Ağır döyüşlər başlandı. Yaralanan da oldu, şəhid olan da. Düşmənin nəzarətdə saxladığı yüksəklikləri azad edərək, onlara çoxlu sayda itki verdik. Həmin döyüşlərdə yüksək rütbəli zabitlərimizin bizimlə çiyin-çiyinə döyüş meydanına girməsi hər kəsdə ruh yüksəkliyi yaradırdı. Qızğın döyüşlər zamanı bir neçə ermənini məhv etdim. Düşməndən intiqam alırdıq. Hər an daha da irəliləyirdik. Qısa vaxtda Talış yüksəkliyini geri qaytardıq. Danışdıqca həyəcanlanıram. Azərbaycan Ordusunun gücünü, qüdrətini, döyüş ruhunu görən düşmən artıq başını itirmişdi. Nə edəcəklərini bilmirdilər. Ordumuzun gücü qarşısında tab gətirə bilməyəcəyini anlayan düşmən qaçırdı. Tarixi torpaqlarımızdan qaçan düşmənlərimizi gördükdə hər kəs qürur hissi keçirirdi, fəxr edirdi. Onlara gələn köməyi də artilleriya qüvvələrimiz tamamilə məhv etmişdi. Mənfur düşmən belə bir "mif" formalaşdırmışdı ki, guya onlar elə bir sədd qurublar ki, bunu keçmək mümkün deyil. Ancaq Aprel döyüşləri sübut etdi ki, bu gün Azərbaycan Ordusunun qarşısını heç bir sədd ala bilməz. Azərbaycan Ordusu 2016-cı ilin



aprelində düşmənə öz gücünü göstərdi və "Ohanyan səddini" darmadağın etdi. Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, qüdrətini, qələbə əzmini və xalq ilə ordu arasında birliyi nümayiş etdirdi. Ermənistan silahlı qüvvələri müharibə başlayacağı təqdirdə güclü bir ordu ilə qarşılaşacağını dərk etdi. Onu da dərk etdi ki, vətənpərvərlik işğalı sona çatdıracaq, Azərbaycan əsgəri qələbə qazanacaq.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Teymur Əliyev:**

- Aprelin əvvəllərində Ermənistan silahlı qüvvələri bizim mövqelərimizi və dinc əhalini intensiv atəşə tutmağa başlamışdı. Bizə verilən tapşırığa əsasən onların qarşısını layiqincə



alıb, əks-həmləyə keçdik. Səhər saat 5-6 radələrində artıq Lələtəpə yüksəkliyini düşməndən azad etmişdik. Bir neçə saat ərzində bu qədər irəliləməyimizi görən düşmən özünü itirmişdi. Düşmən qaçırdı. Onlar gördülər ki, bir neçə mövqe bizim nəzarətimizdədir və heç nə edə bilməzlər. Ermənilər silahlarını, zirehli jiletlərini, çantalarını atıb qaçırdılar ki, yüngüllük olsun. Döyüşlər zamanı hər bir əsgər irəli atılmağa can atırdı. Gecə müşahidə zamanı gördük ki, onlar bir mövqedə cəmləşərək bizə zərbələr endirmək istəyirlər. Lakin artilleriyaçılarımızın peşəkarlığı nəticəsində onların dəstələri tamamilə məhv edildi. Lələtəpə yüksəkliyini azad etdikdən sonra Asim Əliyev üçrəngli bayrağımızı çantasından çıxararaq təpəyə sancdı. Lələtəpə yüksəkliyində dalğalanan bayrağımızı gördükdə sevincimizin həddi-hüdudu yox idi. Bəzilərimiz sevinclərindən göz yaşlarını saxlaya bilmədilər. O anı heç bir zaman unutmaram. Ali Baş Komandanımızın döyüş əmri ilə tez bir zamanda digər torpaqlarımızı da mənfur düşməndən azad edəcəyik. Hər birimiz o gün üçün xidmət edirik.

Bu qələbə böyük qələbədir. Bu qələbə təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Mən fəxr edirəm ki, Aprel döyüşlərində iştirak etmişəm. Hərbi xidmətdə olan əsgərlərimizin hər biri Böyük Qələbənin əsgəri olmaq istəyir. İnanıram ki, bu qələbə uzaqda deyil.

**"Azərbaycan Ordusu"**



# Xarici dövlətlərin hərbi attaşeləri Hərbi Akademiyada olublar

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunan xarici dövlətlərin hərbi attaşeləri üçün aprelin 3-də Silahlı Qüvvələrin Hərbi Akademiyasına tanışlıq səfəri təşkil olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 12 dövləti təmsil edən 14 hərbi attaşelik aparatının nümayəndələri akademiyanın tədris fəaliyyəti ilə tanış olub, onlara təhsil müəssisəsi haqqında brifinq təqdim edilib.

Sonra qonaqlar Azərbaycan Hərb Tarixi Muzeyini ziyarət edərək orada nümayiş etdirilən ekspozisiyalarla tanış olublar.

Hərbi attaşelər tədbirin təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Acarlı, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***5 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Mərzili, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# Xarici İşlər Nazirliyinin əməkdaşları Cocuq Mərcanlıda

## Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin mənafeyinə uyğun nizama salınması Azərbaycanın xarici siyasətində prioritet istiqamətdir

*Aprelin 4-də Xarici İşlər Nazirliyinin rəhbər heyəti Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edib. Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyinin qeyd olunduğu cari ildə həyata keçirilən səfərin əsas məqsədi 2016-cı ilin Aprel döyüşlərinin ildönümündə düşmən işğalından azad edilmiş ərazilərimizə baş çəkmək, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin əsgər və zabit heyəti ilə görüşmək, eləcə də Cocuq Mərcanlı kəndində aparılmış abadlıq işləri və təmin edilmiş təhlükəsizliklə yaxından tanış olmaqdır.*




AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nazir müavinləri Ramiz Həsənov və Nadir Hüseynovun rəhbərliyi altında xüsusi tapşırıqlar üzrə səfirlərdən və struktur bölmə rəhbərlərindən ibarət nümayəndə heyəti əvvəlcə Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edərək, önünə əklil və tər çiçəklər qoyub, respublikamızın ərazi bütövlüyü uğrunda həlak olan Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər. Sonra Cocuq Mərcanlıya gedən yolun kənarına Aprel zəfərinin ildönümü ilə əlaqədar şəhidlərimizin xatirəsinə ağac əkilib.

Cocuq Mərcanlıya gələn nümayəndə heyəti klub icma mərkəzində Cəbrayıl rayon İcra Hakimiyyətinin rəhbərliyi və kənd sakinləri ilə görüşüb. Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Cocuq Mərcanlı kəndi haqqında məlumat verib. Bildirib ki, Cəbrayıl rayonunun digər yaşayış məntəqələri kimi Cocuq Mərcanlı kəndi də 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərək yandırılıb, dağıdılıb. Azərbaycan Ordusunun 1994-cü ilin əvvəlində keçirdiyi Horadiz əməliyyatı zamanı kənd erməni işğalından azad olunub. 2016-cı ilin Aprel döyüşlərinə qədər Lələtəpə strateji yüksəkliyi Ermənistan ordusunun işğalı altında olduğundan Cocuq Mərcanlı kəndində yaşayış qeyri-mümkün idi. Azərbaycan Ordusunun 2016-cı ilin aprel ayında erməni təxribatına cavab olaraq keçirdiyi əkshücum əməliyyatı nəticəsində yüksəkliyi azad etməsindən sonra kənddə təhlükəsiz yaşamaq mümkün olub.

İşğalçı Ermənistan ordusu tərəfindən tamamilə dağıdılan Cocuq Mərcanlıda Prezident İlham Əliyevin sərəncamları ilə 150 fərdi yaşayış evinin, məktəb binasının, uşaq bağçasının, tibb məntəqəsi, poçt və klub-icma mərkəzi üçün binaların, Şuşa məscidinin bənzərinin və digər zəruri infrastruktur obyektlərinin tikintisi həyata keçirilib, "Qayıdış" parkı salınıb. Cocuq Mərcanlı sakinləri 24 illik köçkünlük həyatından sonra öz doğma yurdlarına dönüblər. Kənddə sakinlərin məşğulluğu və kənd təsərrüfatı ilə məşğul olmaları üçün şərait yaradılıb. Azərbaycan Ordusunun Aprel döyüşlərindəki qələbəsi, Cocuq Mərcanlının yenidən qurulması və kənd sakinlərinin yurda qayıdışı onu göstərir ki, biz torpaqlarımızın işğal altında qalmasına razı olmayacağıq və azad ediləcək bütün yaşayış məntəqələrini Cocuq Mərcanlı kimi bərpa edəcəyik.

Xarici İşlər nazirinin müavini Ramiz Həsənov bildirib ki, respublikamızın ən böyük problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bu münaqişənin ölkəmizin mənafeyinə uyğun nizama salınması Azərbaycanın xarici siyasətində prioritet istiqamətdir.

Diqqətə çatdırılıb ki, ölkəmizin Azərbaycan Ordusunun ön cəbhədə nümayiş etdirdiyi qəhrəmanlıq və şücaət Azərbaycan əsgərinin Vətənə bağlılığını, qətiyyətini göstərir. Bu, hər bir azərbaycanlını sevindirir. Azərbaycanlı deputatlar da öz növbəsində, ölkəmizin maraqlarının beynəlxalq müstəvidə layiqincə qorunması istiqamətində davamlı addımlar atırlar.

Daha sonra Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin müəllim və şagirdləri ilə görüş keçirilib. Qonaqlar Cocuq Mərcanlıda salınan "Qayıdış" parkında və Şuşa məscidinin bənzəri olan məsciddə də olub, burada şəhidlərin ruhuna dua oxuyublar.

Nümayəndə heyəti ön xətdə xidmət edən əsgər və zabitlərin xidmət və məişət şəraiti ilə tanış olub, işğal altındakı Azərbaycan ərazilərini müşahidə ediblər. Sonra "N" hərbi hissəsində əsgərlərlə birgə nahar olub.

# "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışda tank bölmələrinin döyüş hazırlığı yoxlanılıb, heyətlərin bilik və bacarıqları artırılıb, döyüş vərdişləri təkmilləşdirilib. Komandalar sürücülük, gecə və gündüz vaxtı atış, fiziki hazırlıq və digər məşğələlər üzrə məqbulları müvəffəqiyyətlə yerinə yetirib, eləcə də verilən tapşırıqlar dəqiq, vaxtında və düzgün icra olunub.

Yekunda "Ən yaxşı tank bölüyü" adına layiq görülən heyət müəyyənləşib.

# ƏÜO-da gənc əsgərlərin ixtisas hazırlığı kurslarının buraxılış mərasimi keçirilib

*Yanvar ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlər Əlahiddə Ümumqoşun Orduda təşkil edilmiş ixtisas hazırlığı kurslarını uğurla bitiriblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, zabit, əsgər və valideynlər adından çıxış edənlər kurslarda fəallıq göstərərək yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnən gənclərə xidmətlərində uğurlar arzulayıblar. Vurğulanıb ki, Azərbaycan Ordusunun sıraları sizin kimi yüksək döyüş hazırlığına malik oğullarla möhkəmlənir. Əminik ki, siz əsgərlər də yeri gələrsə üçüncü ildönümünü qeyd etdiyimiz Aprel döyüşlərində və Günnüt qələbəsi zamanı rəşadət göstərən igid oğullarımızın yolu ilə gedərək bir an belə tərəddüd etmədən Vətən uğrunda qəhrəmanlıq göstərəcəksiniz.

İxtisas hazırlığı kursunu başa vurmuş əsgərlər rabitə vasitələri ilə fəaliyyəti, fiziki hazırlıq üzrə silahsız və silahlı çalışmalar kompleksini, müxtəlif atıcı silahların gözübağlı vəziyyətdə natamam sökülüb yığılmasını, minaatan qurğuların döyüşə və səfər vəziyyətinə gətirilməsini, mina sahəsinin qurulmasını və keçidlərin açılmasını nümayiş etdiriblər.

Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edilib. Nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Bölmələrin tribuna önündən təntənəli keçidindən sonra "Əsgər marşı" ifa edilib və ixtisas hazırlığı kurslarını uğurla bitirmiş əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

# Aprel döyüşləri böyük zəfərin başlanğıcıdır

*"N" hərbi hissəsində Aprel döyüşlərinin üçüncü ildönümünə həsr edilmiş tədbir keçirildi. Tədbirdə qeyri-hökumət təşkilatlarının nümayəndələri, kütləvi informasiya vasitələrinin əməkdaşları, Aprel şəhidlərinin ailə üzvləri və hərbi hissənin şəxsi heyəti iştirak edirdilər.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən polkovnik-leytenant Ramin Əliyev Aprel döyüşləri haqqında geniş məlumat verərək bildirdi ki, Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini bütün dünyaya nümayiş etdirdi. "Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan güclü Azərbaycan Ordusu üç il öncə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Aprel döyüşlərində hektarlarla ərazini işğaldan azad etdi. Ötən ilin mayında uğurlu Günnüt əməliyyatını həyata keçirdi. Azərbaycan Ordusu işğal altındakı ərazilərdə, özü də strateji yüksəkliklərdə mövqe tutmuş, orada illərdir möhkəmləndirmə işləri aparmış düşməni darmadağın etməyi bacardı. Ordumuzun bu qələbəsi sübut etdi ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etmək iqtidarındadır, biz heç bir zaman torpaqlarımızın işğalı ilə barışmayacağıq".

Ehtiyatda olan Zabitlər Konfederasiyası İctimai Birliyinin nümayəndəsi, ehtiyatda olan polkovnik Xətai Baxışov Aprel döyüşlərində qazanılan qələbənin bütün Azərbaycan xalqının qələbəsi olduğunu, bu şanlı zəfərin xalqımızın tarixində əhəmiyyətli rola malik olmasını tədbir iştirakçılarının nəzərinə çatdırdı. Bildirdi ki, Azərbaycan Ordusunun qələbəsi insanlarımız arasında ruh yüksəkliyini, gənclərimizdə Vətən, torpaq sevgisini daha da artırdı.

Əsgər Röyal Abbasov Aprel döyüşlərinin xalq-ordu, ordu-xalq birliyini özündə təcəssüm etdirdiyini bildirdi. "Həyata keçirilən əks-həmlə əməliyyatı zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarıldı, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri düşmən tapdağından tam azad edildi".

Aprel döyüşlərində şəhid olan əsgər Əlizaman İslamovun anası Hürnisə xanım, baş gizir Fizuli Salahovun anası Sevda xanım, əsgər Anar Əsgərlinin anası Fərqanə xanım, əsgər Rəşid Baxşaliyevin anası Çimnaz Baxşaliyeva, həmin döyüşlərdə qəhrəmancasına vuruşan, Qarabağ qazisi Qoşqar Hacıyevin qardaşı İlqar Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərilən diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, şəhid ailələrinə və qazilərə hər zaman yüksək diqqət və qayğı var.



Çıxışlardan sonra tədbir iştirakçıları ikinci Fəxri xiyabanda Aprel döyüşçülərinin məzarlarını ziyarət etdilər, məzarları önünə əklil qoydular.

Bu qayğı Vətənini sevən hər kəsin qayğısıdır. Hər bir vətəndaş üçün şəhidlərə, şəhidliyə müqəddəs borc ödəmə var və bu borc oduqca ehtiramla, sayğılarla yerinə yetirilir. Bu borc, müəyyən mənada Vətən borcu səviyyəsində yerinə yetirilir.

Şəhidlərin bu səviyyədə yad edilməsi olduqca gərəkli vətənpərvərlikdir. Belə xatırlamalar istər yeniyetmələrin, istərsə də gənclərin vətənpərvərlik duyğularının formalaşmasında olduqca əhəmiyyətlidir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

---

*Hərbi Dəniz Qüvvələrində Aprel zəfərinin üçüncü ildönümünə həsr olunmuş "Aprel döyüşləri - böyük zəfərin başlanğıcı" adlı tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin əməkdaşları, hərbi hissənin şəxsi heyəti, Aprel döyüşlərinin iştirakçıları və şəhidlərin ailə üzvləri iştirak edirdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbir iştirakçılarının nəzərinə çatdırıldı ki, 2016-cı ilin aprelin əvvəllərində düşmənlə təmas xəttində yerləşən mövqelərimiz və yaşayış məntəqələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda, ordumuz əks-hücum əməliyyatı ilə təxribatların qarşısını aldı. Bu hadisə Aprel döyüşləri kimi tarixləşdi. Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Lələtəpə və bizim üçün böyük strateji əhəmiyyət kəsb edən digər yüksəkliklər işğaldan azad edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən quruldu. Ata-baba yurdlarından didərgin düşən həmvətənlərimiz doğma el-obasına geri döndülər. Bu döyüşlər ordumuzun gücünü, qələbə əzmini, ədalətin tezliklə bərpa ediləcəyini də göstərdi. İşğal altında olan torpaqlarımızın azad olunması uğrunda mübarizədə xalqımız da hər an ordusunun yanında olduğunu bütün dünyaya nümayiş etdirdi. O da qeyd olundu ki, bu döyüşlərin gənclərdə həmrəylik, vətənpərvərlik tərbiyəsinin və milli ruhun gücləndirilməsində böyük rolu vardır.

Birinci dərəcəli kapitan Zaur Hümmətov çıxış edərək bildirdi ki, Aprel döyüşlərində ordumuzun qazandığı qələbə ölkəmizin bütün vətəndaşlarında böyük ruh yüksəkliyinə səbəb oldu. O, həmin döyüşlərdə şəhid olan miçman Rusif Ağayev və başından yaralanan Yaşar Ağayev kimi oğullarımızın fədakarlıq, rəşadət göstərdiklərini vurğuladı. Şəhidlik zirvəsinə ucalanların daim xalqımızın qəlbində yaşayacağını diqqətə çatdırdı. Zabit ordumuzun təkmilləşdirilməsində və maddi-texniki bazasının möhkəmləndirilməsində, milli hərbi kadrların hazırlanmasında ulu öndər Heydər Əliyevin əvəzsiz xidməti olduğunu və Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində Azərbaycan Ordusunun bölgənin ən güclü ordusuna çevrildiyini qeyd etdi.

Çıxış edən birinci dərəcəli kapitan Natiq Bağırov Aprel döyüşlərini xalqımızın qəhrəmanlıq salnaməsi, illərin həsrət sonu olduğunu bildirdi: "Döyüşlərdə hərbçilərimizin göstərdiyi şücaət, qazandığı qələbə xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Qısa vaxt ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələn ordumuz böyük gücə malik olduğunu sübuta yetirdi. Vətən övladı olaraq hamımız hər an onun müdafiəsinə qalxmağa hazırıq. Hər birimiz Aprel döyüşlərinin qəhrəmanlarını daha geniş miqyasda təbliğ etmək, onların döyüş yolu və həyatı haqqında cəmiyyəti maarifləndirməliyik."

Daha sonra Aprel döyüşlərinin iştirakçıları döyüş xatirələrindən danışaraq vurğuladılar ki, döyüşlərin başladığı ilk gündən xalqımız ordumuzun yanında oldu.

Çıxışlarda vurğulandı ki, Aprel zəfəri Böyük Qələbənin başlanğıcıdır. O da qeyd edildi ki, bundan sonra onlar bütün fəaliyyətlərini qısa müddət ərzində böyük itki vermədən tarixi torpaqlarımızın azad edilməsinə həsr edəcəklər.

Çıxışlardan sonra şəhid Rusif Ağayevin uşaqları Əli və Zəhranın ifasında Vətənə, vətənpərvərliyə, şəhidlərimizə həsr olunan şeirlər səsləndi. Tədbirin sonunda Aprel döyüşləri ilə bağlı videoçarx nümayiş etdirildi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Vətənpərvərlik tərbiyəsində veteranların rolu

*Aprelin 3-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında müharibə veteranları ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tələbə və müəllim heyətinin görüşü keçirilib.*



AZƏRTAC xəbər verir ki, görüşün əsas məqsədi gənclər arasında vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda canından keçmiş, Vətən, xalq qarşısında əvəzsiz xidmətləri olan şəhidlərimizin tanıdılması, gənc nəslə onların həyat və fəaliyyətlərinin örnək olaraq təbliğ olunması olub.

Tədbirdə çıxış edən istefada olan general-polkovnik Tofiq Ağahüseynov gənc nəslin vətənpərvərlik tərbiyəsi istiqamətində Respublika Veteranlar Təşkilatının həyata keçirdiyi işlər və onların vətənpərvərlik ruhunda tərbiyə edilməsində veteranların fəaliyyəti haqqında məlumat verib. O, ulu öndər Heydər Əliyev irsinə sadiq fəaliyyət göstərən təşkilatın Prezident İlham Əliyev tərəfindən hərtərəfli diqqət və qayğı ilə əhatə olunmasını vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov Azərbaycan gəncliyinin xalqına, dövlətçiliyinə sədaqətli, vətənpərvər, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik olduğunu qeyd edib. O, Azərbaycanın ictimai-siyasi həyatında, müxtəlif sahələrdə qazanılan yüksək nəticələrin əldə edilməsində, eləcə də ərazi bütövlüyümüzün təmin olunması, müstəqilliyimiz naminə sinəsini sipər etmiş gəncləri əsl vətənpərvər adlandırıb. C.Xəlilov Azərbaycan gəncliyinin Vətən sevgisinə, tərbiyəsinə, əxlaqına görə dünyaya nümunə olduğunu diqqətə çatdırıb.

ADPU-nin rektoru, professor Cəfər Cəfərov çıxışında bu gün ölkəmizdə gənclərin üzərinə düşən məsuliyyətdən və rəhbərlik etdiyi universitetin gənclərinin təhsildə qazandığı uğurlardan danışıb. Rektor ötən günlərdə universitetdə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü, Aprel döyüşləri və Kəlbəcərin işğalı ilə bağlı tədbirlərin keçirildiyini bildirib. Gənc nəslin vətənpərvər, savadlı kadrlar kimi yetişməsində belə tədbirlərin əhəmiyyətinin böyük olduğunu diqqətə çatdıran C.Cəfərov Azərbaycanın gələcəyinin əmin əllərdə olmasını vurğulayıb. O qeyd edib ki, hazırda gənclərimizin əsas vəzifələrindən biri də sosial şəbəkələrdə Qarabağ həqiqətlərini dünya ölkələrinə çatdırmaqdır.




Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant, şəhid Sənan Axundzadənin həyat yoldaşı, Nərimanov rayon 45 saylı məktəbin direktoru Nəcibə Axundova çıxış edərək ölkəmizdə şəhid ailələrinə göstərilən xüsusi qayğıdan danışıb. O, bu işdə Birinci vitse-prezident Mehriban Əliyevanın böyük əməyinin olduğunu diqqətə çatdırıb.

Əfqanıstan və Qarabağ müharibəsi veteranları polkovnik Adil Haqverdiyev, polkovnik Elşad Şabanov, ADPU-nin dekanı Laçın Həsənova, Aprel döyüşlərinin iştirakçısı Elşad Məmmədov və başqaları çıxış edərək gənclərimizə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan, Azərbaycan həqiqətlərinin dünyada təbliğində gənclərin rolundan danışıb, gənclərin təşkilatlanmasının vacibliyini bildiriblər. Onlar Azərbaycan gənclərinin vətənpərvərliyindən, rəşadət və mərdliyindən söhbət açıblar. Müxtəlif sahələrdə gənclərin qazandıqları uğurlardan və qarşıda duran vəzifələrdən danışan veteranlar onları Vətəni müdafiə etməyə, işğalçılardan azad etməyə hər zaman hazır olmağa çağırıblar.

Sonra tədbir iştirakçıları universitetin müəllim və tələbələrinin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov haqqında hazırladıqları videoçarxa baxıblar.

Sonda ADPU-nun rektoru C.Cəfərova "General Həzi Aslanov" yubiley medalı və kollektivin bir qrup müəllim-tələbə heyətinə Respublika Veteranlar Təşkilatının fəxri fərmanı təqdim olunub.

# “N” hərbi hissəsinin əsgərləri Tərtər rayonunda ekskursiyada olublar

*Azərbaycan Ordusunun 2016-cı ilin Aprel döyüşlərində qazandığı qələbənin üçüncü ildönümü ilə bağlı "Vətən Uğrunda" səyyar təşviqat dəstəsinin və Tərtər rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “N” hərbi hissəsinin əsgərlərinin Tərtər rayonuna ekskursiyası təşkil edilib.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əsgərlər əvvəlcə Tərtər şəhərinin Mərkəzi Meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, sonra Tarix-Diyarşünaslıq Muzeyində xalqımızın tarixini, mədəniyyətini özündə əks etdirən eksponatlarla tanış olublar. Ekskursiya çərçivəsində əsgərlər işğaldan azad edilmiş Şıxarx qəsəbəsində 2016-cı ilin Aprel döyüşlərində Talış yüksəkliyi istiqamətindəki döyüşlərdə şəhid olmuş 70 hərbçinin şərəfinə ağac əkilən ərazidə



qoyulan və hər bir şəhid haqqında məlumatları özündə əks etdirən lövhələrə baxıblar. Sonra ermənilərin Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə Şıxarx qəsəbəsində ermənilərin özləri tərəfindən ucaldılmış "Marağa 150" abidəsinin qalıqları ilə tanış olublar.

Ekskursiya zamanı Aprel döyüşlərində Tərtər istiqamətində düşməndən azad olunmuş ərazilər də ziyarət edilib.

Hərbi qulluqçular xidmət yerlərinə xoş təəssüratlarla qayıdıblar.

# “Moskva Dağlıq Qarabağ münaqişəsi tərəflərinin mövqelərinin yaxınlaşmasında vasitəçilik etməyə hazırdır”

*Rusiya Dağlıq Qarabağ münaqişəsi tərəflərinin mövqelərinin yaxınlaşmasında vasitəçilik etməyə hazırdır. AZƏRTAC xəbər verir ki, bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib.*

Ermənistanın müdafiə nazirinin danışıqların ruhuna zidd olan aqressiv bəyanatı ilə əlaqədar M.Zaxarova deyib ki, Rusiya münaqişənin siyasi-diplomatik həllinin tərəfdarıdır. M.Zaxarova deyib: "Prosesə kömək edirik, ələqələr saxlayırıq. Düşünürəm ki, konkret bəyanatları şərh etməyin mənası yoxdur. Şübhəsiz ki, tərəflərin qarşılıqlı razılaşmalarına üstünlük verilir".

M.Zaxarova qeyd edib ki, mövqelərin yaxınlaşması ilə əlaqədar məsələlər varsa, Rusiya onları alqışlayır. Onun sözlərinə görə, buna ehtiyac yaranarsa, Moskva ATƏT-in Minsk Qrupunun həmsədri qismində götürdüyü öhdəliklər çərçivəsində kömək etməyə hazırdır.

Tibb xidməti polkovniki Əliyev Əli Şahverdi oğluna 2009-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Alıyev Elgün Pəncalı oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Miçman Hacıyev Rövşən Ramis oğluna 2014-cü ildə verilmiş miçmanın şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 274
Nüsxə 3950